Adımız məfkurəmizdir

29 iyul – 4 avqust 2025-ci il

# Türküstan

www.turkustan.az

# Türklər bəşər tarixinin ruhudur



**Aydın Mədətoğlu Qasımlı**
**filologiya üzrə fəlsəfə doktoru**

(əvvəli ötən sayımızda)

***İnsani, milli və dini dəyərlərə yiyələnən Türklər beynəlmiləlçilik idealına yiyələnmiş, bu ideala sadiq qalaraq əsrlərcə yalnız özlərinə deyil, bütün insanlığa xidmət etmişlər.***

***Türklər milli və insani duyğuları ilə tarix səhnəsinə çıxmış, bütün mövcud dinləri yaşayaraq siyasi təşkilatlanma vəhərbi qabiliyyətləri ilə Cahan hakimiyyəti davasına girişmiş, üç qitə arasında dinləri, mədəniyyətləri çulğalaşdıraraq bəşər mədəniyyəti tarixini zənginləşdirmişlər. Elmi, dini, ictimai, iqtisadi və siyasi baxımdan durmadan yüksələn Türklər Asiya və Avropa xalqlarını bir-biri ilə qaynadıb qarışdıraraq ümumbəşəri mədəniyyətin yaranmasındaəvəzsiz xidmətlər göstərmişlər.***

Türk xalqının, Onun qəhrəman hökmdar və sərkərdələrinin qüdrəti və dühası sayəsində artıq XVI əsrdə Yer kürəsinin böyük bir qismi ayrı-ayrı Türk xalqlarının hakimiyyəti altında idi. XVI əsr tarixə «Türk əsri» kimi daxil olmuşdur.

Bütün bu xidmətlərin əvəzində çox təəssüflər olsun ki, uzun sürən xaçlı yürüşləri bəşəriyyətin illərlə əldə etdiyi mədəniyyətləri alt-ust etmiş, Şərqin Qərbə qarşı bir şübhə, bir əndişə bəsləməsinə səbəb olmuşdur. Bu Səlib yürüşləri Türklərin universal dünyagörüşlərini zədələmiş və nəticədə dünyanı iki düşmən məzhəb qovğasına sürükləmişdir. Türklərin bu xaçlı yürüşlərinin qarşısını qanları bahasına alması bəşəriyyəti bu qorxunc təhlükədən xilas etdi.

Türklər qan verdi, can verdi qoca Şərqi təkcə Öz hakimiyyətinə almadı, həm də Onu qorudu, tarixi missiyasınışərəflə yerinə yetirdi.

Tarixdə hər bir millətin yüksəliş və eniş dövrü olur. XVIII əsrdən etibarən güclənməyə başlayan Türk düşmənçiliyi yeni elmi-texniki tərəqqiyə yiyələnərək Türkləri məğlub duruma saldı. Tarixdə hər hansı bir xalq bu qədər basqıya, sui-qəsdə məruz qalsaydı, heç şübhəsiz ki, tarixdən silinərdi. Lakin Türk insanı bu məğlubiyyətin, gerilənmənin tam çöküşə düşməməsi üçün nə etmək haqqında fikirləşməyə başladı. Həm vəziyyətdən çıxma ümidi, həm Qərbi Avropaya çatma düşüncəsi beyinlərdə hakim kəsilməyə başladı. Çox təəssüflər olsun ki, bu ümid vədüşüncəni bütün ziyalılarımız və dövlət adamlarımız dərk etmədi. Ona görə də fərqli «reseptlər» ortaya çıxdı. Qərbdən və Şimaldan mərhələ-mərhələ sıxışdırılan Türk dünyası XVIII əsrdən başlayaraq sürətlə yüksəldiyi zirvədən üzü aşağı yuvarlanmağa başladı və nəhayət, iki yüz il ərzində bütün qazandıqlarını itirərək sonda məğlub duruma düşdü. Lakin Türklərin soylarından gələn daxili enerjisi, dinamik qüdrəti, idarəçilik qabiliyyəti Onları həyatın yüklədiyi ağır imtahanlardan şərəflə çıxardı, Türkü XXI əsrə altı müstəqil dövlətlə daxil etdi. İndi belə Türklərin bu durumuna qısqanclıqla, düşməncə yanaşanlar Onları hər vəchlə tarix səhnəsindən silməyə çalışır, hər fürsət düşdükcə zərbələr vurmaqda davam edirlər. Tarixən Türk düşmənləri «Türk» sözünə qarşı belə dünyanın bir çox ölkəsində savaş başlamışlar. Çünki «Türk» adı bu adı daşıyanlar üçün nə qədər qürur qaynağıdırsa, Türkün düşmənləri üçün bir o qədər qorxu, vahimə qaynağıdır. Bu vahiməni, bu qorxunu ortadan qaldırmaq üçün dünyadakı Türk düşmənləri uzun müddət baş sındırmış və nəhayət, Türkü parçalayaraq ona Tatar, Özbək, Qazax, Qırğız, Türkmən, Başqurt, Azərbaycanlı və s. adlar qoydular. İndi artıq ayıq-sayıq olmalıyıq, düşmənlərin hər bir fitnə-fəsadına, həmləsinə layiqincə cavab verməyə çalışmalıyıq. Bunun üçün ilkin şərt mövcud Türk dövlət vəxalqlarının beynəlxalq aləmdə bir-birlərinə dayaq durmaları, bir-birləri ilə mədəni, iqtisadi, siyasi və hərbiəlaqələrini genişləndirmələridir.

Türk olmaq hələ Türkü sevmək, Onun yüksəlməsinə çalışmaq demək deyil. Türkü sevmək, Onun yüksəlməsinəçalışmaq ilk öncə Ona vəcdlə vurğunluqdan keçir. Bu vəcdlə vurğunluğun əsasında Türkün tarixini, dilini,ədəbiyyatını, mənəvi dəyərlərini dərindən öyrənmək durur. Unudulmamalıdır ki, tarixdə ən böyük qüsurumuz «özəlimizlə yaratdığımız və yaşatdığımız xarici gözəllərə aşiq olub onlarla evlənməyimiz», yəni öz dilimiz vəədəbiyyatımızın əvəzinə hakimiyyətimiz altında olan xalqların dil və ədəbiyyatlarını zənginləşdirməmiz olub. Türklərin tarixində min il rəsmi siyasi-hərbi hakimiyyətlə milli dil və milli mədəniyyət hakimiyyəti üst-üstədüşmədiyindən ərəbcə və farsca yazan şair, ədib və filosoflarımızın yaratdığı maddi-mədəniyyət nümunələri başqa xalqların adına yazılmış, hətta Türkün qanı, canı bahasına qurduğu dövlətləri başqalarının adına çıxmışlar. Tarix bir ibrət dərsidir. Bu böyük xətamızı bir daha təkrar etməməliyik. Tarix boyu Vahid Tanrıya, min il ərzində İslam dininin təlqin etdiyi Allaha tapınmış, haqq və ədalət uğrunda milyonlarla şəhid vermiş bir millətin - Türk millətinin ilahi himayə və yardımı ilə əbədi yaşayacağına, yenidən Öz tarixi missiyasını şərəflə yerinə yetirəcəyinə varlığım qədər inanıram. Bütün bunlarla yanaşı bugün Türklər üçün ən gərəkli BİRLİK ilk növbədə TÜRK BİRLİYİDİR ! Ondan sonra tarixən İslama sahib çıxaraq onu qoruyan və bununla da bütün xristian dünyasını qarşısına alan Türk-İslam birliyi gəlir . Tarix göstərir ki, Türklər Türk birliyi yaratmadan Türk - Fars, Türk- Ərəb birliyi yaratmaqla Türkü unutmuş, özləri bir- biri ilə savaşaraq yaratdığı bütün İmperatorluqlar sonda Farslara və Ərəblərə xidmət etmiş və bu əvəzsiz xidmətin qarşılığı olaraq onlardan yalnız xəyanət görmüşdür ! Təkcə Səlcuqluları, Osmanlıları, Səfəviləri və Qacarları göstərmək kifayətdir ki, bu dediklərim anlaşılsın.



Unutmayaq ki, Tarixə yön vermiş bir millət olan Türklər, tarixin müəyyən dövrlərində dünya coğrafiyasını baş- dan-başa dəyişdirmişlər. Başda Türküstan ( Orta Asya ) olmaqla Azərbaycan, Persiya, Anadolu, Balkanlar, Avropa, Afrika , Hindistan və Çində tarih boyu böyük dövlətlər və İmperatorluqlar quran Türklər, getdikləri yerlərə nizam- intizam, ədalət və mədəniyyət aparmışlar. XX əsrin sonlarından Sovet İttifaqının yıxılması ilə öz müstəqilliklərinəqovuşan Azərbaycan və Türküstan ( Orta Asya ) Türk Cumhuriyyət- ləri yeni yüzilin gətirmiş olduğu bir çox problem gözləməkdədir. Ancaq böyük bir millət olmanın gətirmiş olduğu dinamiklər, Türk Cumhuriyyətlərinə hər sahədə yeni üfüqlər açacaq, bütün bu göstərilənləri də nəzərə alaraq Türk Dünyası və Onun aparıcı təşkilatı olan TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI Türkiyə Cumhuriyyəti başda olmaqla tarix səhnəsində haqq etdiyi yeri mütləq bulacaq və alacaqdır !

Ey Türk İnsanı! Sənin istiqbalın öz əlindədir. Bu gün Sən artıq dünənki Sən olmamalısan. Səni artıq kahinlər, sehrbazlar, rəmmallar, mərsiyəxanlar, saxta falçılar, idrakı sönük başlılar və s. bu kimi bir sürü nifrət başçılar deyil, Türkü, Türklüyü yüksəltməyə çalışan həqiqi alimlər, intelektlər idarə etməlidir.

Ey Türk Milləti! Sən kökündən çox uzaqlaşıb Çin dənizinə, Vyana qapılarına, Roma civarına, Afrika qitəsinə qədər vardığın üçün "Zaman" deyilən "Bağ qayçısı" həddən artıq uzanan budaqlarını kəsdi. Kəsdi ki, Sən qocalmayıb Öz Kökün üzərində yenidən qolbudaq atıb cavanlaşasan, böyüyəsən, əbədiyaşar olasan.

Ey Türk dünyası! Sənin gələcək istiqbalın Turanın bütövləşməsindədir. Bu parampərça olub ərazisi yağı düşmənlər tərəfindən zəbt olunmuş Turanın bütövlüyünün açarı "Azərbaycan" deyilən bu ən qədim Türk yurdunun Bütövlüyündədir. Əgər bütün diqqətini Ona yönəltməsən, bütün ağlını və gücünü Onun bütövləşməsinə sərf etməsən bütün əməllərin boşa çıxacaq, bütün imkanların hədər gedəcək.

***Yeni Turan mədəni, iqtisadi və hərbi birlik əsasında Türk Cumhuriyyətlərinin federasiyası və ya konfederasiyasışəklində ola bilər. Bütöv Azərbaycan da məhz bu gələcək "Yeni Turan" silsiləsinin mühüm bir halqası olacaq.***

***Ey Türk Milləti! Ulu Tanrı Səni Şərqdə yol göstərən, Asiya qitəsinə bələdçi və Onu qoruyucu təyin edib. Sənin istiqbalın Qərbdə - Avropada deyil, Şərqdə - Asiyadadır. Tanrının bu göstərişini yenidən yerinə yetirməyin vaxtı çatıb. Yolun açıq, məramın uğurlu olsun! Tanrı Sənə yar olsun.***

> ***Türk olmaq hələ Türkü sevmək, Onun yüksəlməsinə çalışmaq demək deyil. Türkü sevmək, Onun yüksəlməsinəçalışmaq ilk öncə Ona vəcdlə vurğunluqdan keçir. Bu vəcdlə vurğunluğun əsasında Türkün tarixini, dilini,ədəbiyyatını, mənəvi dəyərlərini dərindən öyrənmək durur. Unudulmamalıdır ki, tarixdə ən böyük qüsurumuz «özəlimizlə yaratdığımız və yaşatdığımız xarici gözəllərə aşiq olub onlarla evlənməyimiz», yəni öz dilimiz vəədəbiyyatımızın əvəzinə hakimiyyətimiz altında olan xalqların dil və ədəbiyyatlarını zənginləşdirməmiz olub...***